# Ağdam: barıt qoxulu torpaq

- **Rayon ərazisinin 77,4 faizi erməni silahlı birləşmələri tərəfindən işğala məruz qalıb.**
- **Ağdam şəhəri, bir qəsəbə və 82 kənd ermənilər tərəfindən zəbt olunub.**
- **143 min nəfər əhali məcburi köçkünə çevrilib.(1993-cü il)**
- **İşğal zonasında 34600 yaşayış evi, 108 mədəniyyət ocağı, 99 kənd klubu, 114 məktəb, 120 səhiyyə müəssisəsi, 57 rabitə, onlarca zavod, fabrik, yüzlərlə tarixi abidə, min hektarlarla meşə zolağı, bir neçə strateji su mənbəyi qalıb. Ötən 20 il ərzində ermənilər bu qədim yurd yerini xarabalığa çeviriblər. Təxmini hesablamalara görə, rayona 17 milyard ABŞ dollarından çox ziyan dəymişdir.**
- **Ağdam Qarabağ müharibəsində 5 min nəfərdən çox şəhid verib, 3571 nəfər əlil olub. 16 nəfər Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.**
- **Hazırda rayon ərazisində 18 yeni qəsəbə salınıb. Enerji və su təsərrüfatı qaydaya salınıb, yeni məktəblər və tibb ocaqları inşa olunub. İstehsal sahələri işə salınıb.**

İqtisadi inkişaf, regionların dirçəlişi müharibə ağrıları yaşamış bu torpağa bir qaynarlıq, yüksək əhval-ruhiyyə, sabaha dərin inam, insanların həyatına əmin-amanlıq, süfrələrinə bol ruzi gətirib. Cəbhə xəttində yerləşən və ərazisinin böyük əksəriyyəti işğal altında qalan Ağdama hər səfərimiz bir yeniliklə yadda qalır. İndi yurd qapısı hesab olunan, Xaçın çayının sağ sahili boyunca baş qaldıran qala divarları, torpaqlarınımızın və dövlətçiliyimizin müdafiəsi uğrunda şəhid olmuş Vətən oğullarının əziz xatirəsinə ucaldılmış abidə kompleks, ulu öndər Heydər Əliyevin adını daşıyan prospekt, bir kəndin şəhərə çevrilməsi üçün çalışan insanların qətiyyəti, torpağın yeni libası bu yerlərə ayaq basan hər bir kəsdə sonsuz ruh və ümid yaradır. Buranın Ağdam torpağı olması indi daha aydın duyulur. Başı bəlalar və müsibətlər çəkmiş bu yurdun qapısında bütün rəmzləri özündə birləşdirən böyük bir kompleks yaradılıb. Burada işğal altında qalan torpaqların harayı, şəhidlik, işğaldan sonrakı əsl sınaq illəri, Ağdamın özünə xas adət-ənənəsi, yurd nisgili, yenidən ayaq üstə qalxmaq, tikib-yaratmaq, qurmaq haqqında bir nağıl danışır.

Cəbhə xəttində yaşayan insanların əhvalı da çox yüksəkdir. Rayon mərkəzi hesab olunan Quzanlı qəsəbəsi günbəgün dəyişir və gözəlləşir. Bir tərəfdən küçələr və prospekt qaydaya salınır, yeni binalar inşa olunur, yollara asfalt örtük döşənir, bir tərəfdən təbii qaz xətləri, uzun illərdən bəri içməli su sarıdan korluq çəkən Quzanlıya su kəməri çəkilib, bir tərəfdən isə səliqə-sahman yaradılır, ağaclar əkilir, yaşıllıqlar salınır.

Qəsəbədə yaraşıqlı, gözəl bir prospekt var. Ağdamlıların ulu öndərə sonsuz məhəbbətinin simvolu olan bu prospektin gözəlliyi və müasirliyi diqqəti daha çox cəlb edir. Fontanlar, bulaqlar, gecə işıqları, istirahət guşələri prospektin ən gözəl cizgiləri hesab olunur. Kəndarası yolların hamısına asfalt örtük çəkilib. Bölgədə analoqu olmayan Heydər Əliyev mərkəzinin tikintisi uğurla davam etdirilir. Bütün bu işlərə isə ərazidə məskunlaşmış məcburi köçkünlər və yerli əhali cəlb olunub. Bir sözlə, bu gün qarşıya nəcib və şərəfli bir vəzifə qoyulub: möhtərəm prezidentimiz İlham Əliyevin Ağdam rayonuna, ağdamlılara göstərdiyi doğma münasibətə, diqqət və qayğıya əməli işlə cavab vermək. Hazırda rayonda aparılan tikinti-quruculuq işləri, cəbhə xəttində yerləşən kəndlərə təbii qaz xəttinin çəkilməsi, içməli və texniki suya olan tələbatın ödənilməsi adamları torpağa, doğma el-obaya daha sıx bağlayıb.

Ermənistanın hərbi təcavüzü rayonun iqtisadiyyatına, mədəni həyatına, adət-ənənəsinə, flora və faunasına, ən əsası isə insanların taleyinə cox ağır zərbələr vurub. Erməni vandalizmi qədim bir şəhəri yer üzündən silib, onun xarabalıqları haqdan və ədalətdən danışmağı sevən dünyanın gözü qarşısında yüz minlərlə insanın acı taleyindən xəbər verir. Ağdam canlı muzeyi xatırladırdı, bu qədim diyarın hər daşının altında bir tarix yatırdı, burada zəngin yataqlar var idi. Qarabağın toy otağı hesab olunan Ağdam məkrli niyyətlərin, xain və yalancı vədlərin, təxribatın, xəyanətin meydanına cevrildi. Yerli özünümüdafiə dəstələri arasına ədavət və düşməncilik toxumu səpilmişdi. Bir cox xarici ölkənin kəşfiyyat xidməti onsuz da ağır olan vəziyyəti daha da ağırlaşdırmışdı. 1993-cü ilin iyul ayı ərəfəsində Ağdamda vəziyyət belə bir məcrada idi. Öz havadarlarının köməyinə arxalanan Ermənistan silahlı qüvvələri işğal, talan-qarət və etnik təmizləmə apararaq Qarabağın mərkəzini ələ kecirdilər.

İşğal haqqında danışmaq çox ağırdır. Bu dərd və kədər köynəyini əynimizdən çıxara bilmirik. Nə eləmək olar, bu bir tarixdir, onu zaman-zaman gələcək nəsillər üçün təkrar etməliyik. Zənnimizcə, yurdsuzluqdan ağır bir faciə təsəvvür etmək mümkün deyil. Erməni təcavüzü nəticəsində öz doğma yurd yerlərindən didərgin düşmüş, ev-eşiyini itirmiş insanların dözümü və ümidi qarşısında əlahəzrət söz də aciz qalır. Elə bir gün olmur ki, bu insanlar yurd yerlərini, el-obalarını, ev-eşiklərini, həyət-bacalarını xatırlamasınlar. Təbii ki, onlar öz evlərinin hənirini, bağ-bağatlarının ətrini, doğma ocaqlarının istisini heç bir yerdə duya bilmirlər. Ağdamın zümzüməli çayları, diş göynədən bulaqları, zümrüd meşələri, yaşıl ormanları qəlbimizdə həzin bir bayatıya çevrilib. Yaranın ağrısı isti-isti hiss olunmadığı kimi, yurd həsrəti də illər keçdikcə daha çox qövr edir, qəlbimizi göynədir.

Ermənistanın Azərbaycana qarşı apardığı hərbi təcavüzün ən ağır nəticələri özünü Ağdamda büruzə vermişdir. Vaxtilə ölkənin ən böyük, abad və varlı rayonlarından biri olan bu qədim diyar erməni silahlı qüvvələri tərəfindən işğal edilmiş, təbiətin və insanların yaratdığı bu canlı abidə xarabalığa çevrilmişdir. İşğaldan düz 22 il keçir. Təcavüzün ağır zərbələrini dadmış insanlar ötən bu illər ərzində həmişə sülh tərəfdarı olduqlarını dönə-dönə nümayiş etdiriblər. Çox təəssüf ki, Ermənistan öz havadarlarının, təcavüzün, silah-sursatın, ekstremizmin dili ilə danışmağa üstünlük vermişdir. Bir də təsssüf doğuran odur ki, münaqişəni tənzimləməyi boynuna götürmüş beynəlxalq təşkilatlar Ermənistanın cığallığına açıq-aşkar göz yumur, təcavüzkarı öz adı ilə çağırmır və münaqişəni dondurmağa cəhd edirlər.

Yuxarıda qeyd etdiyimiz kimi, Ermənistan öz havadarlarının köməyinə arxalanaraq 1988-1993-cü illər ərzində torpaqlarımızın 20 faizini işğal etmiş, qədim yurd yerlərimizi xarabalığa çevirmiş, etnik təmizləmə apararaq bir milyona yaxın soydaşımızı öz ev-eşiyindən, doğma ocaqlarından zorla qovmuşdur. Təcavüzün və işğalın miqyası çox geniş, nəticələri isə çox ağır olmuşdur.

1991-ci ilin sentyabrından 1992-ci il fevralın 26-dək ermənilər Dağlıq Qarabağın Azərbaycan əhalisini dədə-baba yurdlarından qovdular. Yüzlərlə kənd və qəsəbəni yandıraraq xarabalığa çevirdilər. Minlərlə dinc, əliyalın azərbaycanılı qətlə yetirildi. Həmin illərdə öz doğma ev-eşiyindən didərgin salınan əhali Ağdama pənah gətirir, burada sığınacaq tapırdı. Ağdamllılar faciə ilə üzləşmiş soydaşlarımızın dərdinə şərik çıxır, onlara diqqət və qayğı göstərir, ən əziz tikələrini onlarla yarı bölürdülər. Həmin vaxt Qarabağın toy otağı hesab olunan Ağdamın ən ağır, ziddiyyətli və çətin günləri başlanmışdı. Bu yerlərdə pərdə-pərdə dalğalanan musiqi sədalarının yerini qaçqın və məcburi köçkün dalğası bürümüşdü. Nə qədər ağır və dözülməz olsa da, Ağdam camaatı yüksək vətənpərvərlik nümayiş etdirir, düşmənə layiqli və tutarlı cavab verirdi.

Ağdam Qarabağda bir qalaya bənzəyirdi. Əslində ermənilər bu qalanın həndəvərinə yaxın düşə bilməzdilər. Xain düşmən ağdamlıların iradəsinə, vətənpərvərliyinə hələ keçən əsrin əvvəllərində baş vermiş erməni-müsəlman müharibəsindən bələd idi. Bütün Qarabağda Ağdamın necə mühüm əhəmiyyət kəsb etdiyini, Ermənistanın başladığı müharibədə daha çox itkiyə məruz qaldığını xalqımızın ümummilli lideri Heydər Əliyev çox düzgün olaraq belə qiymətləndirib: “1988-ci ildə Elmənistanın Azərbaycana hərbi təcavüzü-ilk atışmalar, ilk qığılcım, təcavüzün ilk addımları məhz Ağdama tərəf yönəlmişdir. Bu da təbiidir, çünki Dağlıq Qarabağda yaşayan ermənilər daim Ağdamla əlaqədə olurdular. Ağdamın nə olduğunu yaxşı bilirdilər. Ağdamın tarixini də, keçmişini də, Ağdamın insanlarının nə qədər cəsur olduqlarını da yaxşı bilirdilər. Strateji təcavüzün qarşısının alınması üçün Ağdam, şübhəsiz ki, çox əhəmiyyətli bir nöqtədə idi. Ağdam qorunmalı idi, Ağdam saxlanmalı idi, Ağdam müdafiə olunmalı idi. Ağdamın işğalı yolverilməz idi”.

1991-ci ildən başlayaraq Ağdam od-alov içərisində, ağır döyüş maşınlarının tırtıllları altında boğulur, öz tarixinin ən ağır və məşəqqətli günlərini yaşayırdı. İgid oğlanlar torpaqlarımızın müdafiəsi üçün qızğın döyüşlərə atılır, erməni hərbi qüvvələrinə ağır və sarsıdıcı zərbələr vururdular. Ağdam camaatının hünəri qarşısında ermənilər aciz qalmışdılar. Son damla qanına qədər Ağdam uğrunda döyüşərək həlak olan, Azərbaycanın Milli Qəhrəmanları Allahverdi Bağırov, Canpolad Rzayev, Yelmar Edilov, Şirin Mirzəyev, Əlabbas Qarayev və digərlərinin ruhu indi də bu torpaqlarda nigaran-nigaran dolaşır.

1988-ci ildən başlayaraq Ağdam rayonunun əhalisi erməni təcavüzü ilə üz-üzə qalsa da, Ermənistan hərbi qüvvələrinə qarşı vuruşaraq öz dədə-baba yurdunu qoruyurdu. Bu qeyri-bərabər döyüşlərdə 5 min nəfərdən çox şəhid oldu. Bacarıqsız rəhbərlərin buraxdığı kobud səhvlər torpaqlarımızın itirilməsi ilə nəticələndi. Ağdamın işğal edilməsinin əsası da elə 1991-1992-ci illərdə qoyulmuşdu. Bu haqda dəfələrlə söhbət açılıb. Ən doğru qiyməti xalqımızın dahi oğlu, ümumilli liderimiz Heydər Əliyev verib: “Təəssüflər olsun ki, Ermənistan silahlı qüvvələrinin gücü və eyni zamanda Ağdamın müdafiəsində buraxılan səhvlər və bəzi səbəblər nəticəsində rayonun ərazisinin bir hissəsi işğal edilmişdir”.

1992-ci il sentyabrın 4-də mühüm strateji nöqtədə yerləşmiş Abdal-Gülablı kəndləri işğal edildi. Ümumiyyətlə, Ağdamın işğalı ərəfəsində rayonda 22 batalyon, o cümlədən 4200 nəfərdən çox şəxsi heyət, kifayət qədər silah-sursat, hərbi texnika olub. Çox təəssüf ki, xəyanət nəticəsində həmin batalyonlar rayondan çıxarılmış və onlardan 2-si axıra qədər erməni hərbi birləşmələrinə müqavimət göstərmişdir. Hakimiyyəti ələ keçirmək uğrunda sözün əsl mənasında didişən qüvvələr torpaqla alver edirdilər.

1993-cü il iyun ayının 15-də xalqın tələbi ilə hakimiyyətə qayıdan ümummilli liderimiz Heydər Əliyev ölkəni uçurumdan və erməni işğalından xilas etmək üçün əsl fədakarlıq, vətənpərvərlik nümayiş etdirdi. Həmin vaxt batalyonların Ağdamı necə tərk etmələrini camaat çox yaxşı bilir. Bəzi qüvvələr, o cümlədən onların xarici havadarları qəsdən təxribat törətmişdilər ki, bundan istifadə edərək yeni hakimiyyəti devirsinlər. Lakin başı müsibət çəkmiş ağdamlılar bu təxribata uymadılar, xalqın və ölkənin nicatını yalnız ümummilli liderimiz Heydər Əliyevdə gördülər.

Yeri gəlmişkən, 1994-cü ilin aprelində bəzi qüvvələr rayonun 14 kəndini erməni təcavüzünə qurban verməklə yenidən öz çirkin niyyətlərini həyata keçirdilər. Həmin vaxt bu barədə möhtərəm Prezidentimizə məlumat çatdırmaq çox çətinliklə olsa da, baş tutdu. Göründüyü kimi, bir tərəfdən erməni hərbi birləşmələrinin aramsız hücumları, digər tərəfdən isə bəzi qara qüvvələrin təxribatı nəticəsində Ağdam işğala məruz qalmışdır.

Hazırda rayonun özümüzdə qalan hissəsində 70 mindən çox əhali məskunlaşıb. Əzəldən torpağa və zəhmətə bağlı insanlar əkin-biçinlə, heyvandarlıqla məşğul olur, öz güzəran qayğıları ilə yaşayırlar. Həyat günbəgün yaxşılığa doğru dəyişir. 44 kənddə və yeni salınmış qəsəbələrdə gələcək naminə quruculuq işləri davam etdirilir.

Yaxşı xatırlayırıq, 1998-ci ilin payızında ümumilli liderimiz Heydər Əliyev cəbhə bölgəsinə, birbaşa Quzanlı kəndində məcburi köçkünlər üçün salınmış qəsəbəyə gəldi. Ağdam camaatı bu dahi insanı sonsuz məhəbbət və ehtiramla qarşıladı və bu tarixi görüş hər birimizin qəlbində əbədi iz buraxdı. Məcburi köçkünlərlə səmimi görüşən ulu öndər əhalinin sosial-məişət şəraitinin yaxşılaşdırılması üçün mühüm tədbirlər həyata keçirəcəyini bildirdi. Bu unudulmaz görüşdən sonra rayonun sosial-iqtisadi inkişafı, məcburi köçkünlərə qayğının artılırması istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir.

Atəşkəs rejiminin ermənilər tərəfindən hər gün dəfələrlə pozulmasına baxmayaraq, rayon əhalisi öz doğma torpağına ürəkdən bağlı olduğunu qətiyyətlə nümayiş etdirir. Əgər 8-10 il əvvəl Ağdamın işğal olunmuş ərazisində 15 min nəfərə yaxın əhali yaşayırdısa, hazırda 70 min nəfər yaşayır və işləyir. Onlardan biri də Nataliya Aleksandrovna Bayramovadır. Moskva vilayətində doğulub boya-başa çatıb və sonra ailə həyatı quraraq Azərbaycana, daha doğrusu Ağdama gəlib. 1975-ci ildən Ağdam rayonunda yaşayır. İki övladı və altı nəvəsi var. Nataşa Aleksandrovna deyir:

– 1993-cü il iyul ayının 23-də ermənilər hücum edərək Ağdamı işğal etdilər. Ailə üzvlərimlə birlikdə artıq 20 ildir ki, məcburi köçkün həyatı yaşayırıq. Rus olsam da həmişə böyük diqqət və doğma münasibət görmüşəm. Ermənilər isə uzun illər boyu dişimiz-dırnağımızla yaratdığımız ev-eşiyi xarabalığa çeviriblər. Nəvələrim Ağdama qayıtmaq istəyirlər. Dünya bu erməni vəhşiliyinə son qoymalıdır, təcavüzkar cəzalandırılmalıdır.

Əsası ümumilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş humanist siyasət bu gün uğurla davam etdirilir. Qarşıya çox nəcib və xeyirxah məqsəd qoyulub: Azərbaycanda bütün çadır düşərgələri ləğv olunmalıdır. Möhtərəm Prezidentimiz İlham Əliyevin qətiyyətlə həyata keçirdiyi tədbirlər xalqımız tərəfindən, o cümlədən müharibə dəhşətlərini yaşamış məcburi köçkünlər tərəfindən birmənalı şəkildə dəstəklənir və bəyənilir.

Rayonun bu günü, yaşantıları, qayğıları haqqında icra başçısı Raqub Məmmədov nikbinliklə, sabaha dərin inamla, həmyerlilərinin ən müqəddəs arzusunu ifadə edərək deyir ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin məcburi köçkünlərə göstərdiyi doğma münasibət, diqqət və qayğı, onların həyat şəratinin yaxşılaşdırılması üçün həyata keçirilən tədbirlər insanlara çox böyük ümid verir. Həmin insanlar hər dəfə söhbət düşəndə bu barədə razılıqla, minnətdarlıqla, yurd yerlərinə qayıtmaq inamı ilə söz açırlar. Yeri gəlmişkən qeyd edək ki, Ağdamın ən ağır günlərində Raqub Məmmədov doğma rayonun müdafiəsi üçün əsl vətənpərvərlik, dönməz iradə nümayiş etdirmiş, yüksək təşkilatçılıq bacarığı göstərmişdir. Həmyerliləri onu dəyanətli və işgüzar, yüksək təfəkkürə malik bir insan kimi tanıyır və hörmət edirlər.



Rayon mərkəzi sayılan Quzanlı qəsəbəsində indi genişmiqyaslı tikinti-quruculuq işlərinə başlanıb. Ağdamlıların qəlbində və yaddaşında özünə əbədi yer tutmuş, vaxtilə Ağdam şəhərinin nadir memarlıq nümunəsi hesab olunan, işğal nəticəsində tarmar olmuş “Çay evi”nin eyni olan və hər bir ağdamlının nostalji hisslərinin abidəsi kimi yenidən istifadəyə verilib. Bu xeyirxah addım insanlara yeni ruh və yeni arzular bəxş edib. Bütün ağdamlılar deyirlər ki, biz Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında bu qapıdan keçərək işğal altında qalan torpaqlarımızı yadellilərdən azad edəcəyik. Uşaqdan tutmuş ixtiyar qocaya qədər hamı bu ruhdadır, bu inamdadır və bu əhval-ruhiyyədədir.

Rayonun ərazisində məhsul yığımına başlanılıb. Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyinin olması, sahibkarlara kreditlərin verilməsi, əkinçilərə istifadə etdikləri motor yağları və yanacağa görə haqların ödənilməsi, yüksək reproduksiyalı toxumların və cins mal-qaranın əldə edilməsində güzəştlərin olması hesabına sahənin inkişafı üçün əlverişli zəmin yaranmış, bu sahəyə diqqət artmışdır. Taxıl biçini uğurla başa çatdırılıb. Döyüş bölgəsində fədakarlıqla biçin aparmış kombaynçılarin əməyi xüsusilə böyük olub.







Təqdirəlayiq haldır ki, dövlətimiz öz iqtisadi qüdrətini günbəgün artırır, xalqımızın həyat şəraiti durmadan yaxşılaşır. Sabitliyi, əmin-amanlığı, xoş güzəranı, firavanlığı hər bir adam öz həyatında daha yaxından hiss edir. Amansız müharibənin vurduğu yaralara ləyaqətlə və mətinliklə sinə gərən Ağdam camaatı onlara göstərilən dövlət qayğısından dərin razılıq edir, möhtərəm Prezidentimizin siyasətini ürəkdən bəyəndiklərini qətiyyətlə bildirirlər.

Həyatın bütün sahələrində çalışan insanlar bu qayğıya əməli işləri, qüdrətli Azərbaycan dövlətinin inkişaf etdirməsində fəal iştirak etmələri ilə cavab verirlər. Həminşə işguzarlıq və əzmkarlıq nümayiş etdirən ağdamlılar ürəkdən inanırlar ki, respublikamızın ərazi bütövlüyü təmin olunacaqdır. Bu sarsılmaz inamı onlarda Azərbaycan Prezidenti cənab İlham Əliyevin ən yüksək tribunalardan bəyan etdiyi “Azərbaycan heç vaxt öz torpaqlarını güzəştə getməyəcəkdir”, “Rədd olsunlar bizim torpaqlardan. Əgər erməni əsgəri ölmək istəmirsə, Ağdama, Füzuliyə gəlməsin” sözləri yaradıbdır. Xalqın inamı isə heç vaxt sarsılmayıb.

Ötən illərin arxasında minlərlə insanın keşməkeşli taleyi, savaş və şəhidlik, ata-baba yurdunun itirilməsi, məcburi köçkünlük, qəm və kədər, yıxılan böyük bir elin yenidən ayaq üstə qalxması, yaşamaq eşqi, viran qalmış Ağdama qayıtmaq arzuları, sabaha böyük inam dayanıb. Barıt qoxulu torpağın ağrıları göynəsə də ümidləri daha çoxdur...

**Salman ALIOĞLU,**
**“Respublika”.**